# QARABAĞ AZƏRBAYCANDIR!

# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №16 (7487) | 28 noyabr 2020-ci il | Şənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|




## Azərbaycan xalqı müzəffər xalqdır! Azərbaycan Ordusu müzəffər ordudur!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti,*
*Silahlı Qüvvələrin Ali Baş Komandanı*

## Şirvan şəhər rəhbərliyi şəhid Zeynal Zülfüqarlının yeni doğulan övladını ziyarət edib

**Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə oktyabr ayında qəhrəmancasına şəhid olan Zülfüqarlı Zeynal Alim oğlunun yolunu səbirsizliklə gözlədiyi övladı oktyabrın 28-ində dünyaya gəlib. Elə atasının şərəfinə şəhid övladına Zeynal adı verilib.**



Şirvan şəhər İcra Hakimiyyətinin başçısı və aparatın məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri övladının dünyaya gəlməsi münasibəti ilə şəhidin ailəsini ziyarət edib.

Şəhidin valideynlərini təbrik edən qonaqlar, ikinci Zeynalın hər birimiz üçün şəhid əmanəti olduğunu bildiriblər.



Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın şəhidlərimizə, şəhid ailələrinə diqqət və qayğısı hər bir dövlət məmuru və sıravi vətəndaş üçün örnəkdir. Şəhid ailələrinin mənzillə təmin olunması, onlara güzəştli ipoteka kreditlərinin, torpaq sahələrinin, müavinət, pensiya və Prezident təqaüdünün verilməsi, şəhid övladlarının təhsil haqlarının dövlət tərəfindən ödənilməsi, şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı atılan addımlar dövlət tərəfindən göstərilən diqqət və qayğının təzahürüdür. Bu siyasətin davamı olaraq, Şirvan şəhərində də şəhidlərimizin əziz xatirəsi həmişə uca tutulub, ailələrinə hörmət və ehtiram göstərilib, şəhidlərin məzarları vaxtaşırı ziyarət edilib, şəhid ailələrinin sosial problemlərinin vaxtında həll olunması istiqamətində lazımi işlər görülüb və bundan sonra da görüləcəkdir.

Şəhid Zeynal Zülfüqarlının ailə üzvləri şəhidlərin ailələrinə göstərilən dəstəyə görə Ölkə başçısına, Birinci vitse-prezidentimizə minnətdarlıqlarını bildiriblər. Bu gün Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı və idarə-müəssisə rəhbərlərinin körpə Zeynala baş çəkməsinin şəhid adının necə uca tutulduğunun bariz nümunəsi olduğunu vurğulayıblar. Balaca Zeynalın dünyaya gəlişindən təsəlli tapan ailəsi hər iki Zeynalın yaşaması üçün başlarını dik tutduqlarını qeyd ediblər.

Tədbir iştirakçıları balaca Zeynala atası kimi vətənə layiqli, şərəfli övlad olaraq böyüməsini, azad edilən torpaqlarımızın keşiyində qürurla xidmət etməsini arzulayıblar. Bildirilib ki, sentyabrın 27-sindən Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu torpaqlarımızı düşmən tapdağından xilas olunmasında misilsiz şücaət göstərir. Ali Baş Komandan Azərbaycan ordusunun hər zəfər xəbərini səsləndirdikdə bütün şəhidlərimizin ruhu şad olur. Tökülən qanların yerdə qalmaması, balaca Zeynalların azad və bütöv Azərbaycanda xoşbəxt böyüməsi üçün bu gün hər bir vətəndaşımız Dövlət başçısının ətrafında sıx birləşməlidir.

Bütün şəhidlərimizə Allahdan rəhmət diləyən qonaqlar sonda şəhidin övladına hədiyyələrini təqdim ediblər.

# Şirvanda "Bizim həyət"in açılışı olub



**Noyabrın 20-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində Şirvan şəhərində abadlaşdırılan həyətin açılış mərasimi keçirilib.**

Açılış mərasimində Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov, layihələr üzrə koordinat Səbinə Qasımova, hüquq mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri və məhəllə sakinləri iştirak edib.

Tədbiri Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov açaraq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun torpaqlarımızı erməni işğalından azad etməsi və Böyük Qələbə münasibətilə mərasim iştirakçılarını və sakinləri təbrik etdi. Qeyd etdi ki, sahəsi 1,5 ha olan həyətin ərazisində 6 ədəd söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir olunub, infrastruktur yenidən qurulub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 101 ədəd ağac əkilib və yaşıllıq zolağı salınıb. 700 nəfərə yaxın sakinin yaşadığı həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şərait yaradılıb, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, uşaqlar üçün oyun meydançaları salınıb. İlqar Abbasov layihənin həyata keçirilməsində əməyi olan hər kəsə, xüsusilə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri hörmətli Leyla xanım Əliyevaya sakinlər adından təşəkkürünü və minnətdarlığını bildirdi.





Tədbirdə IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov da çıxış edərək layihənin uğurla həyata keçirilməsi münasibətilə şəhər rəhbərliyini və sakinləri təbrik etdi. IDEA İctimai Birliyinin həyata keçirdiyi layihələr barədə məlumat verərək bildirdi ki, "Bizim həyət" layihəsinin əsas məqsədi həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Surxay Şükürov "Bizim həyət" layihəsi çərçivəsində regionlarda ilk olaraq Şirvan şəhərində belə nümunəvi həyətin sakinlərin istifadəsinə verildiyini vurğuladı. Belə layihələrin Ali Baş Komandanın rəhbərliyi ilə işğaldan azad edilən torpaqlarımızda, Dağlıq Qarabağda həyata keçiriləcəyini əminliklə qeyd etdi.

Açılış mərasimində çıxış edən sakinlər İDEA İctimai Birliyinin "Bizim həyət" layihəsi çərçivəsində salınan həyətdə yaradılan şəraitə, onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci-vitse prezident hörmətli Mehriban xanım Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevaya dərin təşəkkürlərini və minnətdarlıqlarını ifadə etdilər.

Sonra şəhər rəhbərliyi, qonaqlar abadlaşmış həyətdə görülən işlər, yaradılan şəraitlə tanış oldular və Şirvan Gənclər Evinin və Aqrar İnkişaf könüllülərinin iştirakı ilə məhəllədə ağac əkdilər.



# Bu, Azərbaycanın, Qalib Ordunun, Müzəffər Ali Baş Komandanın qələbəsidir

**Sentyabrın 27-də başladığı müharibəyə işğalçı Ermənistan 44 gün davam gətirə bildi. Bu müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Azərbaycan Ordusu bir daha dünyanın 50 ən güclülərindən biri olduğunu təsdiqlədi. Xarici havadarlarına güvənən düşmənin texnikası tam məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Özlərini güclü, qüvvətli hesab edən Ermənistan ordusu darmadağın edildi, atəşkəs ərəfəsində artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, başıpozuq dəstələri xatırlatdı. Nəhayət diz çökdü.**

Əgər Paşinyan əvvəllər Azərbaycana heç bir güzəştin olmayacağını bəyan edirdisə, indi ağ bayraq qaldırıb təslim oldu. Düşünülmüş hərbi əməliyyatlar, ordumuzun peşəkarlığı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin əzmi, qətiyyətli siyasətçi və dövlət başçısı olması bir daha özünü büruzə verdi. Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə baxmayaraq, dövlətimizin başçısı öz prinsipiallığını və qəti əzmini bir daha nümayiş etdirdi. Möhtərəm Prezidentimiz bir daha sübut etdi ki, Azərbaycanın milli maraqları onun üçün ən ali dəyərdir.

Azərbaycan Ordusu Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə bir daha dünyaya sübut etdi ki, bir qarış da olsun torpağımız işğalda qalmayacaq. Noyabrın 10-da Ermənistanın rəsmən təslim olması da bunu təsdiqlədi. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi.

Noyabrın 10-u Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu. Həmin gün Azərbaycanın Ermənistan üzərindəki qələbəsi rəsmən elan olundu. Dövlətimizin başçısı İlham Əliyev həmin gün xalqa müraciətində də bunu xüsusi vurğuladı: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar".

Dövlətimizin başçısı bu bəyanatın bizim şanlı qələbəmiz olduğunu və bu müjdəni Azərbaycan xalqına verdiyinə görə çox şad olduğunu bildirdi. Bu bəyanatın imzalanmasının səbəblərindən biri düşmən üzərindəki parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir. Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Bizim Şuşaya qayıtmamız, Şuşanı qaytarmamız Ermənistanın məğlubiyyətini reallaşdırdı. Artıq həm Şuşada, həm də işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, özlərinə yeni ev-eşik quracaq və doğma ata-baba yurdlarında təhlükəsiz yaşayacaqlar. Müzəffər Ali Baş Komandanımız yenilməz ordumuzun gücü ilə 30 illik yurd həsrətinə son qoydu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bir daha bəyan etdi ki, məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtması üçün bundan sonra da əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İndi bütün dünya görür ki, mənfur düşmən bu torpaqları hansı vəziyyətə salıb. Vəhşiləşmiş ermənilər bütün binalarımızı dağıdıb, tarixi abidələrimizi məhv edib, muzeylərimizi talan edib. O cümlədən təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Dağıdılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək, qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq. Xocalı qurbanlarının da, bütün şəhidlərimizin də qisasını aldıq.

Artıq düşməndən azad olunmuş ərazilərin qorunmasında sülhməramlı qüvvələr də iştirak edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları bəyanatın 5-ci bəndində də göstərilir: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır".

Sülhməramlı vəzifələr nədir? Sülhməramlıların əsas vəzifəsi döyüşən tərəfləri barışdırmaqdır. Bu məqsədlə:

- münaqişə tərəflərinin sazişə riayət etməsini izləmək;
- silahlı toqquşmaların qarşısını almaq;
- xarici qüvvələr tərəfindən münaqişə iştirakçılarına silah verilməsinin qarşısını almaq;
- mübahisələri tənzimləmək və təxribatların qarşısını almaq;
- nümayəndə heyətlərinin qorunmasını təmin etmək;
- mülki əhaliyə kömək etmək.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Azərbaycan əldə etdiyi tarixi Qələbə ilə bir daha dünyanın güclü, inkişaf etmiş dövlətlərindən biri olduğunu təsdiqlədi.

Azərbaycan hərb tarixinə yenilik kimi düşən strategiyanı tətbiq edərək, ən müasir silahlardan istifadə etməklə, habelə minimal itkilər verərək qısa müddət ərzində düşmənin əksər hərbi texnikasını məhv etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir.

Azərbaycan Prezidentinin düzgün strategiyası nəticəsində həm döyüş meydanında, həm də diplomatiya sahəsində qalib gəldik. Bu cənab Prezidentimizin rəhbərliyi ilə Azərbaycan Ordusunun və diplomatiyasının qalibiyyətidir.

**Fəxrəddin Rəhimov,**
**Şirvan şəhər Ağsaqqallar şurasının sədri**

# Şəhidlər ölməzdirlər, ölməzi ağlamazlar!

**Torpaq uğrunda ölən varsa, vətəndir. Torpaq su ilə qarışanda palçıq olur, qan ilə qarışanda Vətən.**

2020-ci il 27 sentyabr Azərbaycanımızın yeni şanlı tarixinin yazıldığı günün başlanğıcı. İgid oğullarımız öz qanları ilə qəhrəmanlıq tariximizi yenidən yazdılar. 28 illik işğala son qoyduğumuz yeni qəhrəmanlıq tariximizin başlanğıcı. Nəhayət, Füzulimiz, Cəbrayılımız, Qubadlımız, Zəngilanımız, Qarabağımızın incisi olan Şuşamız və digər işğal altında olan dədə-baba torpaqlarımız doğma övladlarına, əsl sahiblərinə qovuşdu.

Bu gün bütöv Azərbaycanımız var deyə biliriksə, bu yolda qan tökən, canlarını qurban verən qəhrəman oğullarımıza borcluyuq. Onların sayəsində illərdir həsrətində olduğumuz Qarabağımıza qovuşduq. Onların sayəsində torpaqlarımız işğaldan azad edildi, deyə bilirik.

İkinci Qarabağ - Vətən müharibəsi bizlərə elə igidlər tanıtdı ki, hər birinin qəhrəmanlığı bir kitabdır. 19 yaşlı topçu əsgərimizin dəqiq atəşdən sonra televiziya kanallarına nümayiş olunan, düşməni qorxuya salan duruşu gözlərimizin önündən keçmir.

Bu millət, bu vətən, bu torpaq övladları ilə fəxr edir. Birinci Qarabağ müharibəsindən illər sonra doğulan körpələr yaşa dolub əyinlərinə əsgər paltarı geyinib əsl qəhrəmanlıq salnaməsini yazdılar. Bu millətin, bu torpağın necə- necə igid böyütdüyünü mənfur düşmənlərimizə göstərdilər. Qarabağı yalnız şəkillərdən görən, adını böyüklərinin dilindən eşidib, kitablardan oxuyan, gözəlliyini köhnə Azərbaycan filmlərindən izləyən vətənpərvər vətən övladları bu gün Qarabağı əsl sahiblərinə- özlərinə qaytardılar.

Şəhidlərimizin qanı ilə islanmış doğma torpaqlarımız bizim üçün bir daha müqəddəs torpağa çevrildi. İgid oğullarımız mənfur, azğın düşmənin zəbt etdikləri torpaqlarımızı canları bahasına aldılar və axıdılan al qanları ilə təmizlədilər. Bizlərə azad və qanları ilə müqəddəsləşdirdikləri torpağımızı yenidən bəxş etdilər. Vətən torpağını hədsiz məhəbbətlə sevməyin necə olduğunu göstərdilər. Bir qarış torpaq uğrunda ölümü gözə almağı bir daha nümayiş etdirdilər. göstərdilər. Bu millətin qəhrəmanlığını, igidliyini, vətənpərvərliyini bir daha sübut etdilər. Ordumuz Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 gündə əsl vətən, torpaq, millət sevgisini bütün dünyaya göstərdi və öyrətdi. Təkcə düşməni torpaqlarımızdan qovmadılar, Azərbaycanın, türkün gücünü göstərdilər. Bütün dünya gördü vətən necə sevilir, torpaq necə azad olunur, millət necə qorunur.

Cəbrayıllar, İntiqamlar, Elnurlar, Nurlanlar, Mahirlər, Orxanlar, Turallar, Şahinlər, Zeynallar, Şəhriyarlar, Əlilər, Xəyyamlar, Namiqlər, Anarlar, Cavanşirlər, Zahirlər, Əmrahlar, Xəqanilər, Elmədinlər, Mehdilər, İmanlar, Bəhrəmlər, Mübarizlər, Farizlər, Elmanlar, Nofəllər, Kənanlar, saymaqla bitməyən igidlərimiz və İkinci Qarabağ müharibəsində ilk qadın şəhid Arəstə Baxışova şirin canlarından vətən, torpaq yolunda keçdilər.

Gəncliyini yaşamayan, övladının ilk kəlməsini eşitməyən, övlad toyu görməyən, sevdiyi ilə qurduğu arzuları gerçəkləşdirə bilməyən, atalıq hissini yaşamayan, doğulacaq körpəsinin üzünü görməyən igidlərimiz bütün bu xoşbəxtliklərdən torpaq üçün keçdilər.

İgid övladlar dünyaya gətirən analar, həyat yoldaşını itirən gəlinlər, qardaşsız qalan bacılar, üzüyü barmağında qalan sevgililər, ata həsrəti çəkən övladlar da qəhrəmandır. Biz bu qələbəyə görə onlara da borcluyuq. Ata səsini eşitməyən, hələ "ata" kəlməsini dilinə ala bilməyənlərə borcluyuq. Doğulmadan atasızlığa məhkum olanlara borcluyuq. Oğul toyu görməyən atalara, analara borcluyuq.

Şəhidlər qeyrət, ucalıq, şərəf zirvəsidir. Şəhidlər azadlıq rəmzidir. Şəhidlər xalqın qan və qəhrəmanlıq yaddaşıdır. Şəhidlər cənnət sakinləridir.

Bu gün "Ölsəm də sona qədər vuruşacağam" deyən igid vətən oğullarımız sayəsində torpağlarımız işğaldan azad olundu. Azərbaycan bütün dünyaya ordunun, xalqın, hakimiyyətin birliyini göstərdi.

Qarabağın azad olunması uğrunda canından keçən şəhidlərimiz, rahat yatın. Uğrunda canınızdan keçdiyiniz bu torpaqlar əsl sahiblərinə qovuşur. Göy üzündəki mələklərlə vətən səmasından bizləri izlədiyinizi bilirik. Haqqınızı halal edin. Sizin kimi övladları olan vətən düşmənə heç vaxt yenilməz. Necə deyərlər, "Vətən vətən olmur dövlət varı ilə, vətən vətən olur övladları ilə".

**Aidə Cənnətqızı**

# Karantin qaydalarının pozulmasına qarşı reydlər davam edir

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 28 dekabr saat 06:00-dək uzadılıb.**



Qeyd edək ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatuna görə, son sutka ərzində ölkə ərazisində koronavirus (COVID-19) infeksiyasına 3169 yeni yoluxma faktı qeydə alınıb, 1404 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 26 nəfər vəfat edib. Azərbaycanda indiyədək koronavirus infeksiyasına yoluxanların sayı 87163 nəfər, ölənlərin sayı 1079 nəfərdir.

20 noyabr tarixində keçirilən növbəti reyddə ümumilikdə 142 olmaqla, 20 ictimai iaşə, 93 ticarət, 17 bərbərxana və gözəllik salonu, 12 digər xidmət obyektlərinə nəzarət edilib.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinə, habelə sanitar epidemioloji normalara qeyd-şərtsiz əməl olunması ilə tanış olmaq məqsədi ilə şəhər ərazisində fəaliyyət göstərən ictimai-iaşə obyektlərində keçirilən reydlər intensivləşib. Reydlər zamanı ictimai-iaşə və ticarət obyektləri sahibləri, eyni zamanda şəhər sakinləri ilə maarifləndirici söhbətlər aparılmış, ticarət obyektlərinin giriş hissələrində dezinfeksiyaedici maddələr olan xüsusi qabların yerləşdirilməsi, insanlar arasında sosial məsafənin gözlənilməsi, xidmətlərdən yararlanan şəhər sakinlərinin və satıcıların birmənalı şəkildə fərdi qoruyucu vasitələrdən (maska) istifadə etmələri barədə lazımi tövsiyyələr verilmişdir.

Xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar epidemioloji normalara riayət etməyən ictimai-iaşə və ticarət obyektlərinin sahibləri, vətəndaşlar barəsində inzibati qaydada tədbirlər görülmüşdür.

Şirvan şəhəri ərazisində sanitariya-gigiyena norma və qaydalarına riayət edilməsinə ciddi nəzarət edilir və profilaktik tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcəkdir.



# ƏSGƏRLƏRƏ VƏ MÜLKİ ƏHALİYƏ YARDIM PAYLANDI

**Şirvan Qızıl Aypara Cəmiyyətinin kollektivi və könüllüləri noyabrın 7-də Tərtər rayonuna səfər etmişdir. Şirvan və Hacıqabuldan olan iş adamlarının dəstəyi ilə əsgərlərimizə və erməni terrorundan zərər çəkmiş, evsiz qalmış mülki əhaliyə ərzaq yardımı edilmişdir.**

Səfər zamanı bir neçə hərbi hissədə əsgərlərlə və erməni terrorundan zərər çəkmiş sakinlərlə görüş keçirilmişdir. Sakinlərin terrordan sonrakı yaşayış şəraiti ilə maraqlandıq. Mülki əhali düşmənin çirkin hərəkətlərindən qorxmadıqlarını, gündəlik işləri ilə məşğul olduqlarını söylədilər. Onu da dedilər ki, biz prezidentimizə Ali Baş Komandana arxayınıq.

Hacıqabul sakinləri İxtiyar Pirişov, Eldar Əkbərov, Şıralı Qarayev, Qarabağ qazisi Habil Teymurovun dəstəyi ilə əsgərlər və mülki əhaliyə ev sovqatları çatdırıldı.

Həmçinin əsgərlərlə görüş zamanı onlara uşaqlarımızın və insanların sevgi, hörmət, qürür ifadə olunan məktubları çatdırılmışdır.

Əsgər və zabitlər diqqətə görə QAC-nın əməkdaşlarına təşəkkürlərini bildirmişlər. Söyləmişlər ki, döyüş bölgəsində olan igid əsgər və zabitlərimiz dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Mənfur düşmən üzərində qələbə uzaqda deyil...

...Eyni zamanda QAC əməkdaşları torpaqlarımızın ərazi bütövlüyünün təmin olunması uğrunda gedən Vətən müharibəsində ön cəbhədə olan əsgərlərimizin ailələrini də şəhərimizdə ziyarət etmişlər. Onlara mənəvi dəstək göstərilmiş və bu ailələrə ərzaq yardımları verilmişdir. Hər zaman olduğu kimi, bu dəfə də şəhərimizin iş adamı Ziya Əliyev cəmiyyətimizə dəstək olmuşdur. Biz Ziya Əliyevə təşəkkür edirik.

**Gülbikə KƏRİMOVA,**
**cəmiyyətin gənclər təşkilatının sədri**

# ƏDLİYYƏ İŞÇİLƏRİNİN BUİLKİ PEŞƏ BAYRAMI XÜSUSİLƏ YADDAŞLARDA QALACAQ

**Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı əsasında "22 noyabr tarixi ədliyyə işçilərinin peşə bayramı günü" kimi təsis olunmuş və mütəmadi olaraq hər il qeyd olunur. Ölkəmizdə ədliyyə orqanlarının yaradılmasından 102 il ötür. Bəli, 102 il bundan öncə, dövlətimizin ədliyyə tarixinin şərəfli yolunun başlanğıcı 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlayır. 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikasının (ADR) elan edildiyi gün Ədliyyə Nazirliyi də yaradılmışdır.**



Ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabrın 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Sovet hakimiyyəti illərində ifrat mərkəzləşdirilmiş hakimiyyət, ayrı-ayrı dövrlərdə ədliyyə orqanlarından repressiya aləti kimi istifadə edilməsinə yönələn dövlət siyasəti, bu orqanların dəfələrlə ləğv edilib yenidən yaradılması ədliyyə sisteminin sabit struktura malik olmasına və işinin təşkilinə maneçilik törədirdi. Azərbaycan Demokratik Respublikasının 1920-ci il aprel ayının 27-28-də Rusiyanın XI Qızıl Ordusu tərəfindən işğal edildikdən sonra inqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin, 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

Ədliyyə Nazirliyinin yenidən yaradılması görkəmli dövlət xadimi cənab Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edildi və bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlamış oldu. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə göstərilən hüquqi yardımı yaxşılaşdırmışdır.

Azərbaycan ədliyyəsi ölkəmiz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra daha da çiçəkləndi. Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyəti artdı. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafını təmin edən məqsədyönlü, islahatlar həyata keçirildi. Ədliyyə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi, bu strukturda olan orqanların inkişaf etdirilməsi əlbəttə ki, ölkə başçımız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla aparılır.

2006-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər qəbul olunub, struktur təkmilləşdirilmişdir. 18 aprel 2006-cı il tarixli Fərman ilə Ədliyyə Nazirliyi haqqında əsasnamə təsdiq edilərək ona hüquq mühafizə orqanı statusu verildi. Nazirlikdə yeni qurumlar- Ədliyyə Akademiyası, regional ədliyyə şöbələri, müxtəlif reyestrlər yaradıldı. Həmin ildə həmçinin "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli Qanunu qəbul olunmuş və ölkə Prezidenti tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanı da imzalanmışdır. Azərbaycan Respublikası Ədliyyə Nazirinin 22 avqust 2012-ci il tarixli 13-T nömrəli "Məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər barədə" əmri ilə Məhkəmə Ekspertizası Mərkəzinin Gəncə, Şirvan şəhərlərində və Şəki rayonunda yerli regional bölmələri yaradılmışdır. Aparılan islahatların nəticəsində regionlarda, eləcə də paytaxtımızda əhalinin məhkəmələrə müraciət imkanları asanlaşdırılmışdır.

2019-cu ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində köklü islahatlar həyata keçirildi. Dövlət başçımızın 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı buna bariz nümunədir. Həmin Fərmanın 7-ci bəndi bu sahədə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin qarşısına qoyulmuş tapşırıqları əhatə edir. Fərmanın 7.4-cü bəndinə əsasən, məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi ilə bağlı beynəlxalq təcrübənin təhlil edilməsi və müvafiq təkliflərin hazırlanması tapşırığı verilmişdir. Bununla əlaqədar Respublikamızda, həmçinin xarici ölkələrdə məhkəmə ekspertizası fəaliyyətinin həyata keçirilməsi üzrə təcrübələr öyrənilmiş, müvafiq normativ sənədlər təhlil edilmiş, bir sıra qabaqcıl Avropa dövlətlərinin praktikası nəzərdən keçirilmişdir. Beynəlxalq təcrübə nəzərə alınaraq ekspertiza işinin beynəlxalq standartlar səviyyəsində müasirləşdirilməsi məqsədilə "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər olunması barədə qanun layihəsi hazırlanaraq 2019-cu il noyabrın 29-da qəbul edilmişdir. Dəyişikliklərə əsasən yeni bir institut - özəl məhkəmə ekspertizası institutu yaradıldı, özəl məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olmaq üçün irəli sürülən tələblər müəyyən edildi. Layihəyə əsasən mülki işlər, inzibati mübahisələr və inzibati xətalara dair işlər üzrə məhkəmə prosesinin iştirakçıları məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən dövlət orqanlarına və ya özəl məhkəmə ekspertlərinə öz təşəbbüsü ilə və öz hesabına ekspertizanın aparılmasını sifariş edə, həmçinin həmin ekspertizanın nəticələrini məhkəməyə təqdim etməsi mümkün olacaqdır.

Bundan başqa, Fərmanının icrası çərçivəsində ekspert araşdırmalarının keyfiyyətinin və operativliyinin artırılması məqsədilə Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin strukturu təkmilləşdirildi.

"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.6-cı,1.1.7-ci və 1.1.8-ci yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq olaraq, 2020-ci il 29 iyun tarixli 226 nömrəli Qərarı ilə "Məhkəmə ekspertinin etik davranış kodeksi", 2020-ci il 29 iyun tarixli 227 nömrəli Qərarı ilə "Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin Reyestrə daxil edilməsi Qaydaları", 2020-ci il 29 iyun tarixli 228 nömrəli Qərarı ilə "Məhkəmə ekspertizasının metodik fondunun yaradılması və istifadəsi Qaydaları" təsdiq edildi.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 01 iyun tarixli 1043 nömrəli Fərmanı ilə "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilmişdir. Ədliyyə sahəsində informasiya və kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi vətəndaşlara yüksək keyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə imkan verir. "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə insanlar artıq məhkəməyə gəlmədən, elektron formada müraciət etmək imkanı əldə ediblər. Hər bir kəs "şəxsi elektron kabinet"ə sahib olmaqla məhkəməyə sənədləri elektron formatda ötürə, məhkəmə işinin materialları ilə ətraflı tanış ola, proseslər barədə məhkəməyə gəlmədən xəbər tuta bilər. Cənab Prezidentin 2019-cu il 3 aprel tarixli Fərmanında elektron məhkəmə ilə Respublikamızın bütün ərazisinin əhatə olunmasına və sistemin bütövlükdə effektiv işləməsinin təmin olunmasına yönəlmiş müvafiq tapşırıqlar verilmişdir.

Məhkəmələrin Vahid Portalı, Məhkəmə Prosesi İştirakçısının Şəxsi Kabineti, Elektron İcra, Məhkəmə Qərarlarının Vahid Bazası və bir sıra alt sistemlər uğurla tətbiq olunur. Səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar xüsusi "Elektron notariat çantası" hazırlanıb. Elektron notariat informasiya sisteminə birbaşa çıxışı olan bu çanta vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür. Digər yenilik elektron ədliyyə köşküdür. Yalnız Azərbaycanda mövcud olan bu köşk vasitəsilə təxirə salınmayan hallarda məsafədən notariat hərəkətləri aparmaq mümkün olacaq. Bu köşklərin sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılması nəzərdə tutulur. Bu qurğular video-əlaqə vasitəsilə 24 saat ərzində notariat xidmətlərinin göstərilməsinə və müvafiq sənədlərin əldə edilməsinə imkan verəcəkdir.

Bir sözlə, görülmüş bu işlər göstərir ki, Ədliyyə Nazirliyi 102 illik tarixi dövr ərzində zəngin, keşməkeşli bir yol keçərək müasir inkişaf mərhələsinə çatmış, dövlətin hüquq siyasətini həyata keçirən orqana çevrilmiş, səlahiyyətləri xeyli genişləndirilmiş, cəmiyyətdə nüfuzu daha da yüksəlmişdir.

Ədliyyə orqanlarında və məhkəmələrdə böyük ruh yüksəkliyi ilə geniş qeyd olunan, Ulu Öndərimizin təsis etiyi 22 noyabr-ədliyyə işçilərinin peşə bayramı günü bu il daha da qürurverici hisslərlə qeyd olunub. Çünki, müstəqil Azərbaycan dövləti ölkə Prezidenti cənab İlham Əliyevin diplomatik məharəti sayəsində tarixinin şanlı günlərini yaşayır, 30 illik həsrət, 30 illik ürək ağrısı bitir. 30 ilə yaxındır mənfur erməni işğalçılarının əsarətində olan doğma Qarabağımız, əziz torpaqlarımız Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən azad edilir, ərazi bütövlüyümüz bərpa olunur. Dədə-baba torpaqları işğaldan azad olunan ərazilərdə olan ədliyyə işçiləri üçün builki peşə günü xüsusilə yaddaşlarda qalacaq.

Biz ədliyyə işçiləri, bu zəfər tarixinin yazıldığı günləri bizə yaşatdığı üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, mübariz, igid oğlullarımıza sonsuz təşəkkürümüzü bildirir, qanları ilə tarix yazan şəhidlərimizin ruhu qarşısında baş əyirik. Qarabağ Azərbaycandır!

**Gülər NOVRUZOVA,**
**Məhkəmə Ekspertizası Mərkəzinin Şirvan regional bölməsinin eksperti, I dərəcəli ədliyyə qulluqçusu**



**Qırx dörd günlük müharibə zəfərimizlə başa çatdı. Ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycanın qələbəsini elan etməsi xəbəri nəinki respublikamızda, dünyanın bir çox ölkələrində yaşayan soydaşlarımızın sevincinə səbəb oldu. Qələbə sorağını eşidən hər bir vətəndaşımız bir-birini təbrik edirdi. Bu qələbəni onlara bəxş edən prezident İlham Əliyevə, müzəffər ordumuza sonsuz təşəkkür edirdilər.**

# ŞUŞALILAR DEYİRLƏR: «BİZ DAHA MƏCBURİ KÖÇKÜN DEYİLİK»



Birinci Qarabağ savaşında torpaqlarımızdan məcburi qaçqın düşmüş, məşəqqətlər görmüş bir milyondan artıq vətəndaşımız 27 ildən artıq idi ki, doğma yurd-yuvalarından ayrı düşmüşdülər.

Lakin onlar ümidlərini itirmirdilər, haçansa o torpaqlara qayıdacaqlarına inanırdılar. 2019-cu ildə Şirvan şəhərində də dövlət tərəfindən qaçqınlar üçün inşa edilmiş yaşayış kompleksində onlar üçün hər cür şərait yaradılmış, dövlət qayğısı ilə əhatə olunmuşlar. Lakin onların yurd həsrəti ürəklərində qalmışdı... Yaşayış kompleksində demək olar ki, vaxtı ilə işğal olunmuş bütün rayonlardan olan qaçqın və köçkünlərmiz məskunlaşıblar. Onların bir neçəsi ilə həmsöhbət oldum.

Alik Vəli oğlu Məmişov 1977-ci ilin aprelində Şuşa şəhərində anadan olub. O söhbət zamanı dedi:

- 1992-ci ilin mayın 8-də təpədən dırnağa qədər silahlanmış ermənilərin amansız hücümü zamanı gecə piyada Laçın istiqamətində qaçmalı olduq. Güllələran nəticəsində xeyli yaralanan və ölənlərimiz oldu. Bizi qoruyan Aydın adında yaşlı polisimiz gözümüzün qarşısında düşmən güllləsindən həlak oldu. Turşsu deyilən ərazidə əsir düşməmək üçün özünü qayadan atanlar da oldu. Və nəhayət mayın 11-də Şirvan şəhərinə gəldik. Anam Tovuz, bacım Amaliya, atam Vəli və mən burada şəhərin keçmiş prokuroru, mərhum Eldar Sultanovun yaşadığı evdə qaldıq...

Keçən ildən bu qəsəbədə 4 otaqlı hər cür şəraiti olan mənzildə yaşayırıq. Atam rəhmətə getmiş, bacım, mən də ailə həyatı qurmuşuq. Lalə adlı qız övladım var. Anam Tovuzun isə 82 yaşı var.

**- Şuşanın azad olunmasını eşidəndə hansı hissləri keçirtdin?**

- Onu təsəvvür etmək mümkün deyil. Səhərə qədər yatmadıq, bir-birimizi qucaqlaıb öpüb təbrik edirdik. Sevincdən göz yaşımızı saxlaya bilmirdik. Daha biz qaçqın deyilik. Onu da deyim ki, evimiz Şuşada düz qoşa minarənin qarşısında idi. Əhd eləmişəm ki, gedən kimi ilk namazımı orada - məsciddə qılacağam.

Alikin bacısı Amaliyanın dediklərindən:

- Şuşadan çıxanda 17 yaşım var idi. Sağ qalmağımız möcüzə idi. İndi xoşbəxt ailəm, övladlarım var. İnanıram ki, tezliklə əziz Şuşamıza - evimizə qayıdacağıq. O günə qurban demişəm, birini burda kəsdik,o birini də orada- qapımızın ağzında kəsəcəyik. Qurban olum prezidentimizə, əsgər qardaşlarımıza. İntizarımıza son qoydular...

Mən bu qaçqın şəhərciyində olarkən xeyli soydaşlarımızla əhatə olunmuşdum. Şəhərçikdəki MKİS-nin rəisi Etibar Nəcəfov, laçınlı sahə rəisi Nazim Mirzəyev, zəngilanlı Səxavət Hacıyev, Xocalı sakini Arif Əzizov və başqaları da sevinclərini gizlətmirdilər.

Bir az keçmiş onlarla maraqlı ağacəkmə aksiyasında iştirak etdim. İşğaldan azad olunmuş Zəngilan rayonundan gətirilmiş 100-ə qədər Xançinar tinglərini gözəlləşən şəhərciyin ərazisinə əkməyə tələsdilər.

**Musaxan HEYDƏRLİ**

## ŞİRVAN MƏTBUATI - 90

# İLK İXTİSASLI JURNALİSTİMİZ

## Həsənağa Səmədov



Bir dəfə həmkarlarımdan biri yarıciddi, yarızarafat dedi:

- Həsənağa müəllimdən tez-tez yazılar hazırlayırsan. Bu dünyada o çox narahat insan idi.İmkan ver haqq dünyasında rahat olsun.

Cavabım belə oldu:

- Həsənağa müəllim az tapılan jurnalistlərimizdəndir. Ona görə də ondan nə qədər çox yazılsa bir o qədər yaxşı olar. Xüsusi ilə bu gün Həsənağa müəllim kimi təmiz, peşəkar, prinsipial yazara ehtiyacımız böyükdür. Bəzi gənclər bilsinlər ki, sovetlər dönəmində də saf əqidəli yazarlarımız olub.

Həsənağa Səmədov 1951-ci ildə indiki Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1952-ci ildən 1962-ci ilədək keçmiş Əli Bayramlıda çıxan «Yüksəliş uğrunda» qəzetində məsul katib, 1962-63-cü illərdə Sabirabadda çıxan rayonlararası «Muğan»zona qəzetində şöbə müdiri işləyib. 1963-cü ildən ömrünün sonuna kimi Şirvan şəhər radio verilişləri redaksiyasında məsul redaktor kimi çalışmışdır.

Həsənağa müəllim məhsuldar jurnalist idi. Yorulmaq bilmədən işləyirdi. İşindən də həmişə zövq alardı.

«Yüksəliş uğrunda» qəzetinin 1962-63-cü illərdə çap olunmuş toplusunu Bakıda Milli kitabxanada vərəqlədim. Qəzetin demək olar ki, hər nömrəsində Həsənağa Səmədov imzasına rast gəldim. Özü də hər bir nömrədə bir neçə yazı ilə çıxış edən Həsənağa müəllim gah kolxoz və sovxozlarda çalışan əmək adamlarının zəhmət dolu işləri ilə oxucularını tanış edir, gah da insanları narahat edən problemlərdən yazır, haqqı nahaqqa verən vəzifə sahiblərini ciddi satira atəşinə tutub.

Həsənağa müəllim operativ jurnalist idi. Onu yaxından tanıdığım illərdə məhsuldarlığına, işgüzarlığına təəccüb qalırdım. Məndə elə təsəvvür yaranmışdı ki, Həsənağa müəllim gecələr də yatmır. Əvvəllər onun rəhbərlik etdiyi radio verilişləri redaksiyası «İŞIQ»la bir binada yerləşirdi. Redaksiyanın telefonlarının dəstəyi əlindən düşməzdi. Fontan vuran quyu, orada çalışanlar barədə vaxtında xəbər tutub öncə respublika radiosuna və mətbuatına çatdırardı. Desəm ki, respublikada o dövrlərdə çap olunan qəzet və jurnalların hər birində Həsənağa Səmədov imzasına tez-tez rast gəlirdik, yanılmaram.



**Şəkildə: Həsənağa Səmədov gənc yazarlar Xuraman Kazımovaya («İŞIQ»qəzeti) və Aida Abbasovaya («MAYAK» qəzeti) məsləhət verərkən. 1980-cı illərin yadigarı olan bu şəkil «İŞIQ»ın sabiq foto-müxbiri Habil Məlikov tərəfindən lentə alınmışdır.**

Saat 15-00 da səhər radiosu öz verilişlərinə başlayırdı. O illərdə radio verilişləri redaksiyası texniki avadanlıqlarla zəif təchiz olunmuşdu. Verilişlər birbaşa efirə verilirdi. Nə readktorun, nə də diktorun səhv etməyə haqqı yox idi. Dinləyici «Şirvanın səsi» ilə açılan proqramda öncə ən yeni xəbərlərlə tanış olurdu. Verilişlər bir-birini əvəz edirdi. Həsənağa müəllim və onun redaktorları Hacı Cəfər Cəfərov, Rasim Nəhmədov, məlahətli səsə, aydın diksiyaya malik olan diktor Xuramın Kazımova ilə veriliş saat dəqiqliyi ilə başlayır, vaxtında yekunlaşırdı. Əlbəttə bütün bunlar peşəkar jurnalist Həsənağa müəllimin hər şeyi zərgər dəqiqliyi ilə idarə etməsindən irəli gələrdi.

Həsənağa müəllimin verilişlərini maraqla, diqqətlə dinləyərdik. Axı, onlardan öyrəniləsi çox şey vardı. Veriliş qurtaran kimi bizə yaxınlaşar, fikrimizi soruşardı. Bilirdik ki, Həsənağa müəllim süniliyi, tərifi sevmir, eyni zamanda o haqsız tənqidi də qəbul etmirdi. Ona görə də çalışırdıq ki, verilişlər barədə fikrimizi obyektiv bildirək.

Bəzən Həsənağa müəllim biz qəzetdə işləyən gənc yazarları da verilişlərin hazırlanmasına dəvət edərdi. «Repatyor»u çiynimizə aşırıb müsahibə almağa da göndərərdi. Diktoru əvəz etməyi də bizə həvalə edərdi. Deyirdi ki, jurnalist gərək hərtərəfli olsun. Bəlkə sabah radio redaksiyasında işləməli oldunuz.

Həsənağa müəllim çiyin yoldaşının uğuruna sevinən rəhbər işçi idi. Tez-tez xatırladığım bir epizodu söyləyim. Radionun əməkdaşı Cəfər Cəfərov bir dəmirçi haqqında radio-oçerk hazırlamışdı. O illərdə zəhmət adamlarından, onların işindən bəhs edən yazılara geniş yer verilirdi. Radio-oçerk çox səmimi, inandırıcı alınmışdı. Bu verilişə qulaq asan hər kəs özünü dəmirçinin yerində təsəvvür edir, ona, peşəsinə qibtə ilə yanaşırdı. Dəmirçi peşəsindən gərəkli peşə olmadığı təsəvvürü yaranırdı.

Veriliş qurtaran kimi Həsənağa müəllimi və müəllifi təbrik etdik. Həsənağa müəllimin təklifi ilə həmin radio-oçerk respublika radiosuna göndərildi. «Mən fəhləyəm» radio proqramında Cəfərin öz səsində o veriliş səsləndirildi. O hadisdən təxminən 35 il keçib. Həsənağa müəllimin sevincdən doğan göz yaşları bu gün də gözlərim önündən getmir. O yetirməsinin uğuruna belə sevinirdi.

Həsənağa müəllim təbiətən narahat insan idi. İşi, peşəsi üçün nə qədər narahatlıq keçirirdisə, bir o qədər də ailəsi, uşaqları üçün nigaran idi. Vaxt tapan kimi uşaqlarının təhsil aldıqları məktəbə yollanar, müəllimlərdən övladlarının təhsilləri, davranışları barədə ətraflı məlumat toplayardı. Müəllimlər də yaxşı bilirdilər ki, Həsənağa müəllimə hər şeyi olduğu kimi demək lazımdır. Çünki Həsənağa müəllim yalan tərifi qəbul etməyəcək. Uşaqlarına qarşı həssas, diqqətli, tələbkar olan Həsənağa müəllimin zəhməti hədər getmədi. Ağıllı, savadlı övladlar tərbiyə edib böyütdü. Böyük oğlu Azər Səmədov hüquqşünas oldu. Hakim kimi obyektivliyi ilə fərqləndi. Onun üçün qanunun aliliyi həmişə öndə olub. Hazırda təqaüddədir. Sadiqlə Sevda pedaqoji sahəni seçmişlər. Sadiq də hazırda təqaüddədir.

Həsənağa müəllimin ailəsi, uşaqları haqqında tanıyanlardan soruşanda bu kəlmələr həmişə diqqəti cəlb edir: Onlar haqqında deyirlər ki, ot öz kökü üstə bitib, uşaqları da ata-analarına layiq övlad olublar.

Onu da deyim ki, bu xoşbəxtlik hər ailəyə nəsib olmur. Həsənağa müəllimə - ilk ixtisaslı jurnalistimiz bu xoşbəxtliyə nil olmuşdu.

Bu xoşbəxtliyi zəhməti, əməyi, əməli ilə qazanıb.

Ruhu şad olsun!

**F.RƏHİMOV**

## HƏYATIN QƏRİBƏLİKLƏRİ

# NƏSİRƏDDİN TUSİ «ƏXLAQİ-NASİRİ»DƏ YAZIR:

**«Xurma ağacında heyvanlara xas bir neçə xüsusiyyət vardır, onun tənəsində (gövdəsində) elə bir yer tapıblar ki, heyvanların ürəyində olduğu kimi, burada da həyat istiliyi çoxdur. Ürəkdən qan damarları çıxıb bütün bədənə yayıldığı kimi, buradan da şaxələr çıxıb ətrafa yayılır, sanki mayalanma, barlanma burada baş verir, barlanma vaxtı onun qoxusu döllənmə zamanı heyvan nüftəsinin verdiyi iyə oxşayır. Başqa canlılar başı kəsiləndə, ürəkdən yaralananda, suda batanda necə olursa, xurma ağacı da bəzi cəhətlərdən elə olur.**

Kənd təsərrüfatı mütəxəssisləri xurma ağacında başqa xüsusiyyətlərin olduğunu da demişlər. Bunlardan ən maraqlısı onun yalnız bir ağaca meyl göstərməsi, başqa ağacdan mayalanmamasıdır. Bu başqa heyvanlar arasında olan eşq və məhəbbət hissinə oxşayır.

Xurma ağacının buna oxşar başqa xüsusiyyətləri çoxdur. Onun heyvana çatması üçün yalnız bircə şey qalmışdır: yerindən qalxıb yemək ardınca düşməsi. Buna görə peyğəmbər əleyhisalam adından deyilir ki, «Xurma insanın bibisidir», çünki o belə buyurubdur: «Öz bibimiz-xurma ağacının qədrini bilin.»

# MARAQLI MƏLUMATLAR

**Futbol üzrə dünya çempionatlarının son oyunları zamanı aşkar olunmuşdur ki, idmana elə də həvəsi olmayan bir çox adamlar da futbol azarkeşinə çevrilmişlər. Bu «xəstəliyə» yoluxmanı onunla izah etmişlər ki, matça baxan zaman beynin dofamin ifraz edən sahəsi aktivləşir. Dofamin isə sevinc və narahatlıq (ləzzət) almaq hissiyatı verən harmondur. Matçın gedişini böyük həyəcanla izləyən azarkeşin nəbzi dəqiqədə 160-a qədər yüksələ bilər,bu isə ürəyində problem olan adamlar üçün təhlükəlidir.**

Futbolla bağlı bir maraqlı fakt da var. 1970-ci ildə Meksika həbsxanasından birində ölüm cəzası almış və cəzasının icrasına qısa vaxt qalmış bir məhkum sonuncu arzusu olaraq milli yığma komandasının oynadığı matça baxmaq istədiyini bildirmişdir. Onun heç kimin gözləmədiyi bu istəyi icra olunur. Lakin, o bədbəxt komandası uduzduğu üçün infarktdan ölmüş və hökmün icra olunmasını gözləyə bilməmişdir.

***

Keçmişdə yer üzündə yaşayan insanların ən uzunömürlüsü 122 il 164 gün yaşayan Janna Kalman olmuşdur. Bu uzunömürlü qadın 100 yaşına kimi çaxır içmiş və velosiped sürmüşdür. Eləcə də ömrünün sonuna kimi papioros çəkmişdir.

**Topladı:**
**Tofiq İsgəndərov**

## ALLAH RƏHMƏT ELƏSİN

Fəxrəddin Rəhimov Şirvan şəhər Uşaq Musiqi Məktəbinin keçmiş direktoru

**MÜBARİZ DADAŞOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, əzizlərinə dərin hüznlə başsağlığı verir.


## «İŞIQ»- 2021
## ƏZİZ OXUCULAR!

Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a 2021-ci ilin 1-ci 6 ayı üçün abunə yazılışı başlanmışdır.
6 aylıq abunə haqqı 14 manatdır. «İşıq»a 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar.
H\ h- AZ39AIIB 33060019444100281141.
VÖEN -2100104521. İndeks 66858
«İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!


# “Asan İmza” sertifikatlarının onlayn əldə edilməsi və yenilənməsi ilə bağlı yeni elektron xidmət istifadəyə verilib

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti yeni elektron xidmət istifadəyə verib. Bu,- qüvvədə olan “Asan İmza” sertifikatlarının onlayn yenilənməsi və Şəxsi tipli “Asan İmza” sertifikatı əsasında İş (Biznes) və Dövlət və bələdiyyə tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması xidmətidir.**

Vergi xidmətlərinin böyük əksəriyətinin elektronlaşdırılmasına baxmayaraq, sahibkarların geniş istifadə etdiyi “Asan İmza”ların əldə edilməsi və yenilənməsi prosesi məsafədən xidmətlər sisteminə daxil edilməmişdi. “Asan İmza” sertifikatının vaxtı başa çatmaqda olan sahibkarlar vergi xidmətləri və ya “Asan xidmət” mərkəzlərinə gəlməli, növbələrdə gözləməli və bir çox prosedurları yazılı şəkildə həyata keçirməli olurdular. Bu məsələ koronavirus pandemiyası ilə mübarizənin gücləndiyi və insanlar arasında təmasların minimallaşdırılmağa göstərilən səylər çərçivəsində son bir neçə ayda daha kəskin şəkildə ortaya çıxmışdı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 sentyabr 2019-cu il tarixli Qərarı ilə “Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydaları”nda dəyişiklilər edilərək Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət etmiş şəxslə Mərkəz arasında bağlanılan müqavilənin yazılı formada tərtib edilməsi və sertifikatların kağız daşıyıcıda çap edilərək təqdim edilməsi ilə bağlı tələblər aradan qaldırılmış, imza sahibi tərəfindən sertifikatın qüvvədə olma müddəti ərzində yeni sertifikatın alınması üçün Mərkəzə elektron qaydada müraciət etmək imkanının edilməsi üçün hüquqi əsas yaradılmışdı.

Vergi orqanları və vergi ödəyiciləri tərəfindən sərf olunan vaxt, insan və maliyyə resurslarının dəfələrlə azaldılmasına nail olmaq, ASXM-lərinin fəaliyyətinin yeni qaydaların tələblərinə uyğun təşkil etmək və ölkədə COVİD-19 təhlükəsinin qarşısını almaq məqsədi ilə İnternet Vergi İdarəsində proqram təminatında dəyişikliklərin edilməsi, bununla da qüvvədə olan “Asan İmza” sertifikatlarının onlayn yenilənməsi və Şəxsi tipli “Asan İmza” sertifikatı əsasında İş (Biznes) və Dövlət və bələdiyyə tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması istiqamətində işlərə başlanmışdı.

Aparılan işlər qüvvədə olan “Şəxsi” yaxud “İş” (Biznes) və ya “Dövlət və bələdiyyə” tipli “Asan İmza” sertifikatlarının qüvvədə olma müddəti bitməmiş onların müddətinin uzadılmasını onlayn formada həyata keçirmək, həmçinin “Şəxsi” tipli “Asan İmza” sertifikatı əsasında “İş” (Biznes) və “Dövlət və bələdiyyə” tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması üçün müvafiq imkanının yaradılması ilə bağlı idi.

2020-ci ilin oktyabr ayında bu işlər başa çatdırılıb, “Elektron imza üçün sertifikat xidmətlərinin göstərilməsi üzrə İstifadəçi Təlimatı”na əlavə və dəyişikliklər edilib, o cümlədən mobil operatordan əldə edilmiş “Asan İmza” mobil xidmətinə qoşulma formasının ASXM-ə təqdim edilməsi tələbi aradan qaldırılıb.

Artıq sözügedən elektron xidmət istifadəyə verilib. İstifadəçilər sertifikatın qüvvədə olma müddəti ərzində yeni serifikatın alınması və “Şəxsi” tipli “Asan İmza” sertifikatı əsasında “İş” (Biznes) və “Dövlət və bələdiyyə” tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması üçün ASXM-ə elektron qaydada müraciət edə bilərlər. Vergi ödəyiciləri qüvvədə olan “Asan İmza” sertifikatlarının onlayn yenilənməsi prosedurları ilə Dövlət Vergi Xidmətinin rəsmi saytında tanış ola bilərlər. “Qüvvədə olan “Asan İmza” sertifikatlarının onlayn yenilənməsi üzrə İstifadəçi Təlimatı” və “Şəxsi tipli “Asan İmza” sertifikatı əsasında İş (Biznes) və Dövlət və bələdiyyə tipli “Asan İmza” sertifikatlarının onlayn əldə olunması üzrəİstifadəçi təlimatı” rəsmi internet səhifəyə yerləşdirilib.

**5 saylı Ərazi Vergilər İdarəsi**


Baş redaktor: F.N.RƏHİMOV

*Təsisçilər:* Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və “İşıq”qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650